# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
10

*E-mail: dergi@goyercin.com*
*www.goyercin.com*





Hekayə



Şeir



Nağıl

RAFİQ YUSİFOĞLU

# 18 OKTYABR-DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ

## GÖZÜN AYDIN, AZƏRBAYCAN

Zorla endirilən bayraq
Yenidən ucaldı, qalxdı.
Yurdumuzun göylərində
Bahar şimşəkləri çaxdı.
Sevindi torpağım, daşım,

Babaların ruhu güldü.
Müstəqillik-sönməz ocaq,
Azadlıq-solmayan güldü.
Azadlıq yelləri əsir,
Hər tərəf çiçəkdi, güldü...

Vətən eşqi içimizdə
Yanan vulkanı oyatdı,
Yurdumuzdan küsüb gedən
Əbədi bahar qayıtdı.

Müstəqillik şərbətindən
Çətin, çətin doyar insan,
Ulu yurdum, sən Babəklər,
Koroğlular diyarısan.

Xalqımızı sevməyənlər
Baxıb köksünü ötürdü,
Müstəqillik yurdumuza
Təzə bir hava gətirdi.

Azadlığın gur işığı
Qara zülmətləri boğdu.
Gözün aydın, Azərbaycan,
Taleyinə günəş doğdu...

Rəssam
Mətanət

# ODLAR YURDU

Bizim ölkəmizə çox zaman Odlar yurdu deyirlər. Bu da təsadüfi deyildir. Elə bil ki neft Azərbaycanın qanı, qaz isə onun canıdır. Müasir həyatımızı nə neftsiz, nə də qazsız təsəvvür etmək mümkün deyildir. Bunların ikisi də çox qiymətli yanacaq məhsullarıdır. Neftə qara qızıl deyirlər. Çünkü o, çox qiymətli və lazımlıdır. Neft olmasa maşınlar, təyyarələr, qatarlar, gəmilər hərəkətə gələ bilməz. Qaz da çox qiymətli yanacaq məhsuludur.

Yurdumuzda zəngin neft və qaz yataqları vardır. Xəzər dənizindən çıxan neft Bakı-Ceyhan kəməri vasitəsi ilə xarici ölkə bazarına çıxarılır. Neftdən gələn gəlir ölkəmizin çiçəklənməsinə, xalqın yaşayışının yaxşılaşmasına səbəb olur.

Abşeronda Yanardağ adlanan bir yer var. Yerin altından çıxan qaz burada illər, əsrlər boyu əbədi məşəl kimi yanır. Elə buna görə də bu yerin adını Yanardağ qoyublar.

Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV №